Kredo 2020.- 6 mart.- S.16.

# POEZİYAMIZIN SADİQİ 55 YAŞINDA




Dövrümüzün ünlü şairi Balayar Sadiqin 55 yaşı onun yenicə işıqlığa çıxmış “İslanmış göz yaşı” (Bakı, Ekoprint-2020) kitabının təqdimatı ilə 2 martda Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda qeyd olundu. Balayar Sadiq 1965-ci ildə Lerik rayonunun Küsəkəran kəndində anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 20-dən çox kitabın müəllifidir, AYB və AJB-nin üzvüdür. Prezident mükafatçısı, Beynəlxalq Rəsul Rza ədəbi mükafatının laureatıdır. Azadlıq radiosunun “Ədəbi azadlıq” müsabiqəsinin qalibi olmuşdur. Bu qeydlər onun oxuculara təqdim olunan “İslanmış göz yaşı” kitabının üz qabığındakı müxtəsər tərcümeyi-hal qeydlərindəndir.

Kitaba onun son dövrdə yazdığı on beş soneti, lirik silsilədən şeirləri və “Şəhid anası”, “Hərflərin hərifi”, “Sözün Lənkəran ətri” poemaları daxil edilmişdir. Xüsusilə, “Sözün Lənkəran ətri” poemasında yaddaşa güvənclə şairin nostalji duyğuları çox böyük səmimiyyətlə poetik misralara çevrilir və oxucu yaddaşında iz buraxır. Bu əsərdə o, yaşadığı, mənən böyüdüyü ədəbi mühitə qayıdır. Çox qısa, amma xarakterik cizgilərlə müasirlərinin obrazını təqdim edir.

Lənkəranı “yaşıl gözlü yaşıl şəhər” adlandırır. Bu yaşıl şəhərin yaşıl yazına poeziyasının qüdrətilə ayna tutur. Təbiət etibarilə səmimi olan, yazısında yaddaşının yolu ilə gəncliyə qayıdan şair dövrün mənzərəsini zamanın öz rənginə uyğun ağ-qara çalarlarda yaddaqalan obrazlarla sözə gətirir.

Məmmədhüseyn Əliyevin, Şəkər Aslanın, İltifat Salehin, Mirhaşım Talışlının, Mirsalamın, Məmməd Kazımın, Vaqif Hüseynovun, Tərlanın, Nurəddinin, Cavidanın, Qafar Cəfərlinin, Ağacəfərin, Camal Yusifzadənin, Xatirə Xatunun, Elçin Mirzəbəylinin, Fəxrəddin Teyyubun, Baloğlan Cəlilin, Tofiq Həsənlinin və digərlərinin adlar sırasını öz çəkilərində, sözlərinin yükündə görə bilirik.

Balayar Sadiqin 55 illik yubileyini və kitabının təqdimat mərasimini giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi açdı. Professor Vaqif Yusifli şair haqqında məruzə elədi. Professor Yadulla Ağazadə B.Sadiqin poeziyasının maraqlı xüsusiyyətlərini öz xatirələrinin fonunda dinləyicilərə çatdırdı. Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə, “Kredo” qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələfli və digərləri şairin poeziyasının obrazlar aləmindən söz açdılar.

***Ceyhun ZALLI***